YELİSAVETPOL XEYRİYYƏ CƏMİYYƏTİNİN TARİXİ İZLƏRİ

Zakir Kərimov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti
Zakir.Kerimov.1955@mail.ru

Xülasə

Xeyirxahlıq Azərbaycan xalqının ruhuna xasdır. Dara düşənə yardım etmək, ehtiyacı olana kömək əlini uzatmaq xalqımızın dəyərli mənəvi keyfiyyətlərindəndir. Bu keyfiyyətin təşəkkülü çox qədimlərə gedib çıxır.

XX əsrin əvvəllərində Milli Azərbaycan burjuaziyası və ziyalıları xalqın ehtiyacı olan hissəsinə maddi və mənəvi yardım göstərmək üçün bir sıra xeyriyyə cəmiyyətləri təşkil etmişlər. Belə cəmiyyətlərdən biri də Gəncə şəhərində fəaliyyət göstərənYelisavetpol Xeyriyyə Cəmiyyəti olmuşdur. Bu cəmiyyətin üzvləri böyük fədakarlıq göstərərək imkansız müsəlmanlara Birinci Dünya müharibəsi dövründə Qafqaz cəbhəsi boyunca qaçqın düşmüş müsəlman əhalisinə, o cümlədən uşaqlara, dünyasını dəyişən şəxslərin dəfninə və s. müxtəlif formada yardım etmişlər. Onların fəaliyyəti dövrün arxiv sənədlərində öz izini qoymuşdur. Göstərilən məqalədə xalqına təmənnasız xidmət etmiş bu şəxslərin fəaliyyəti işıqlandırılmışdır.

Açar sözlər:müsəlman,imkansız,qaçqın,Yelisavetpol Xeyriyyə Cəmiyyəti, Qafqaz cəbhəsi

ИСТОРИЧЕСКИЕ СЛЕДЫ ЕЛИСАВЕТПОЛЬСКОГО БЛАГОТВОРИТЕЛЬНОГО ОБЩЕСТВА

Закир Каримов

Резюме

Доброта заложена в духе азербайджанского народа. Помощь нуждающимся, помощь нуждающимся - одно из ценных моральных качеств нашего народа. Формирование этого качества восходит к глубокой древности.

В начале двадцатого века национальная азербайджанская буржуазия и интеллигенция учредили ряд благотворительных организаций для оказания материальной и моральной помощи нуждающимся. Одним из таких обществ было действующее в Гяндже благотворительное общество «Елисаветполь». Члены этого общества принесли огромные жертвы, чтобы помочь нуждающимся мусульманам, мусульманскому населению, ставшему беженцами на Кавказском

фронте во время Первой мировой войны, включая детей, похоронам погибших и так далее. помогали разными способами. Их деятельность наложила отпечаток на архивные документы того времени. В статье освещается деятельность этих людей, бесплатно обслуживающих свой народ.

Ключевые слова: мусульманин, инвалид, беженец, Елисаветпольское благотворительное общество, Кавказский фронт.

HISTORICAL TRACES OF YELISAVETPOL CHARITY SOCIETY

Zakir Karimov

Summary

Kindness is inherent in the spirit of the Azerbaijani people. Helping the needy, reaching out to those in need is one of the valuable moral qualities of our people. The formation of this quality goes back to ancient times.

In the early twentieth century, the National Azerbaijani bourgeoisie and intellectuals established a number of charities to provide material and moral assistance to the needy. One of such societies was Yelisavetpol Charity Society operating in Ganja. The members of this society made great sacrifices to help the needy Muslims, the Muslim population who became refugees along the Caucasus front during World War I, including children, the funerals of those who died, and so on. helped in various ways. Their activities have left their mark on the archival documents of the time. The article highlights the activities of these people who served their people free of charge.

Keywords: Muslim, disabled, refugee, Yelisavetpol Charity Society, Caucasus Front

Uzun müddət Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivində elmi axtarış apararkən Yelisavetpol (mənbədə belə yazılmışdır-Z.K.) Xeyriyyə Cəmiyyətinin fəaliyyəti ilə bağlı qiymətli sənədlərlə tanış oldum. Bu cəmiyyəti təsis edən (1906) insanların nə qədər humanist olduğu, öz xalqını sevdiyini, onun firavanlığı və tərəqqisi üçün çalışdığını duydum. Cəmiyyətin çoxcəhətli fəaliyyətini məqalə şəklində elmi ictimaiyyətə çatdırmaq qərarına gəldim.

Cəmiyyət Gəncənin nüfuzlu ziyalılarından Ələkbər bəy Rəfibəylinin təşəbbüsü ilə yaradılmışdır(1,66).

Cəmiyyətin nizamnaməsi hazırlandı. Yelizavetpol quberniyasının İctımai işlər idarəsi ilə razılaşdırıldıqdan sonra həmin quberniyanınqubernatoru A.Kolaçev 30 iyun 1906-cı ildə (3№ əmr) Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyətinin nizamnaməsini təsdiq etdi(2,v.1). Nizamnamənin birinci bölməsi"Cəmiyyətinməqsədi"adlanır və burada göstərilirdi ki,Cəmiyyət yoxsul

müsəlman uşaqlarının imperiyanın və eləcə də onun hüdudlarından xaricdəki orta və ali təhsil müəssisələrinə daxil olmalarına, həmçinin xəstəxanalarda müalicə olanlara kömək etmək üçün yaradılır(maddə1)və əmək qabiliyyəti olmayan ,hər iki cinsdən olan xəstələri öz himayəsi və qayğısı altına alır,kasıb uşaqlarının və kimsəsizlərinpeşə məktəblərinə və vicdanlı sənətkar-lara verib,onlara sənət öyrətdirməkvəzifəsini qarşıya qoyur(maddə 2).

Nizamnamənin ikinci bölməsində "Cəmiyyətin tərkibi"inə aydınlıq gətirilrdi.Orada qeyd olunur-du ki, həddi-buluğa çatmayan,hərbi mükəlləfiyyət daşıyan şəxslər istisnaolmaqla müxtəlif züm-rələrin,dinlərin,xalqınhər iki cinsə olan nümayəndələri, həqiqi hərbi xidmətdəolan aşağı rütbəlilər,yunkerlər məhdud hüquqlara malik olmaqla qeyri-məhdud sayda şəxslər cəmiyyətə üzv ola bilərdi.

Cəmiyyətin üzvləri üç qrupa bölünürdü:a)fəxri üzvlər.Onlar ümumi yığıncaqda cəmiyyətə xüsusi xidmət göstərən və birdəfəlik 200 rub və ya ildə 20 rubl ödəyən şəxslərdən seçilirdi;b)Həqiqiüzvlər.Hər il 5 manat verməyi öhdəsinə götürənlər idi;в) Adi üzvlər. manatdan 5 manatadəküzvlük haqqı ödəyənlər idi (maddə 6).

Cəmiyyətin vəsaiti:a)birdəfəlik və illik üzvülük haqlarından;в)cəmiyyət üzvləri və şəxslərin ianə edilmiş pullarından,paltarlardan,digər əşyalardan cəmiyyətin təşəbbüsü və iştirakı ilə keçirilən tamaşalardan,konsert ,kütləvi oxulardan , rəqs geçələrindən və bazardan daxil olan gəlirlərdən ibarət idi(maddə 6)

Birdəfəlik ödənilən üzvlük haqları və həmçinin təyinatı ianəçilər tərəfində müəyyən edilən iaənələr çəmiyyətin toxunulmaz kapitalını təşkil edirdi.Cəmiyyətə daxil olan başqa toxunulmaz məbləğ və faizlər cəmiyyətin xərclənən kapitalını təşkil edirdi.

Cəmiyyət nizamnaməsində qarşıya qoyduğu vəzifələri yerinə yetirməyə calışırdı.Xeyriyyə Cəmiyyəti idarə heyəti və umumi iclas tərəfindən idarə olunurdu.Cəmiyyətin idarə heyəti sədr və onun yoldaşından ,xəzinədardan, katibdən və cəmiyyət üzvləri arasında ümumi iclasda bir il müddətinə seçilən üç üzvdən ibarət idi.Bu xeyriyyə müəssisənin ömürlük üzvləri:Hacı Məmməd-hüseyn Rəfiyev,Hacı Ələkbər Hacıyev,Hacı İmamqulu Ağayev və Hacı Əli Hüseynov idi

Arxiv sənədləri ilə tanışlıq cəmiyyətin çoxcəhətli fəaliyyətini üzə cıxarır. Məsələn, dünyasını dəyişən baxımsız şəxslərin cənazəsini (tabutunu) məzara aparmaq üçün katafalka (platforma) düzətdirirdi. Dövrün sənədləri bu barədə maraqlı məlumat verir: "Mən Yelisavetpol qəzasının 2-ci sahəsindəki Kovalevski kəndinin sakini Ovanes Stepanoviç Manuşakyants 1917-ci ilin aprelin 6-da öz imzamla arayış (rospiska- Z.K.) verirəm ki, Cəmiyyətin İdarə Heyətindən katafalka düzəltmək üçün 200 rubl beh almışam (3,v.1). Həm də yuxarıda adı çəkilən şəxs cənab Məşədi Əli Rəfiyevə katafalka düzəltmək

üçün lazım olan əşyaların alınması üçün 402 rubl.20 qəpik xərclədiyi barədə hesabat verir, bu əşyaların hər birinin alınma qiymətinin qarşısında qeyd edir(3,v.2)."

Ovanes Spepanoviç Manuşakyants imzaladığı 31 dekabr 1917-ci il tarixli başqa bir qeyddə (rospiska) katafalka düzəltmək üçün Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyətindən daha 300 rubl beh aldığını təsdiq edirdi (3,v.1). Məşədi Əli Rəfiyev bildirir ki,mən aşağıda imzası olan (31 dekabr 1917) Yelisavetpol Xeyriyyə Cəmiyyətdən Ovanes Spepanoviç Manuşakyantsa bu cəmiyyətin katafalkasının qurulmasında işlədiyi üçün əmək haqqı kimi yüz (100) rubl ödədim" (3,v.7).

Maraqlı nüans. Cəmiyyətin erməni mənşəli olan bir sənətkara sifariş verməsi, ona məvacib ödəməsi Azərbaycan türklərinin beynəlmiləlçilik ruhuna malik olmasının təzahürüdür.

Yelisavetpol şəhər sakini Əhməd Hacıyev də 31 dekabr 1917-ci ildə imzaladığı qeyddə (rospiska) göstərirdi ki, katafalka düzəltmək üçün Yelisavetpol Xeyriyyə Cəmiyyətindən 1 iyun 1917-ci ildə alti yüz manat (600 rub), həmin gün əşyalar almaq üçün əlavəaltmış dörd rubl (64 rubl) almışam (3,v.3).

Yelisavetpol şəhərinin digər bir sakini Məmməd Mehdi oğlu bildirir ki, bu sənədi imzalayaraq (31 dekabr 1917) Yelisavetpol Xeyriyyə Cəmiyyətinə ona görə verirəm ki, katafalkanı rənglədiyim üçün həmin Cəmiyyətdən səksən (80) rubl almışam (3,v.5).

I Dünya müharibəsi dövründə Qafqaz cəbhəsi boyunca yaşayan müsəlman əhalisi dözülməz fəlakətlərə dücar oldu. Yurdsuz-yuvasız, ata-anasız, taleyin ümidinə qaldılar.Belə bir vaxtda Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti və digər Xeyriyyə Cəmiyyətləri ilə yanaşı Yelisavetpol Xeyriyyə Cəmiyyəti də müharibədən zərər görmüş müsəlman əhalisinə, ilk növbədə uşaqlara yardım əlini uzatdı. Bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirdi. Belə tədbirlərdən biri də müsəlman uşaqların yaşaması üçün təşkil olunmuş sığınacağa yardım göstərilməsi idi. Arxiv sənədlərində bu barədə maraqlı məlumatlar vardır. Onlardan birində Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Baş Müvəkkilinin Qafqaz cəbhəsində müharibədən zərər görmüş müsəlmanlara yardım göstərmək barədə Zaqafqaziya Müsəlman Komitəsinə 3 yanvar 1918-ci il tarixdə 17 nömrəli məktub ünvanlayıb. Məktubun surəti Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinə, Yelisavetpol Müsəlman Xeyriyyə Komitəsinə ünvanlanıb.Orada deyilir ki, qaşqınlara yardım üçün Petroqraddan göndərilən dördüncü smeta ölkədə (Rusiyada -Z.K.) siyasi quruluşun dəyişməsi nəticəsində maliyyə iflası baş verdiyi üçün təsdiq olunmamış və heç bir maliyyə vəsaiti ayrılmamışdır(4,v.1)Müharibədən zərər cəkmiş müsəlmanlara və qaçqınlara yardım göstərilməsi dayanmaq ərəfəsindədir. Son aylardakı ümumi ərzaq böhranı daha çox qaçqın

təşkilatlarına toxunmuşdur. Belə vəziyyətdə həmin təşkilatlara pul yardımları paylansa da ancaq bu özünü doğrultmadı. İşğal olunmuş rayonlarda ərzaqın çatışmaması pul paylanmasının əhəmiyyətini sıfıra endirdi. Son vaxtlar sakinlər pul almaqdan imtina etmişlər. Digər tərəfdən manufakturalarda istehsalın böyük həcmdə olmaması və bazarda qiymətlərin yüksək olması qaçqınları kifayət qədər mələfə və geyimlə təmin etməyə imkan verməmişdir. Hər bir qaçqına hər ay 1 rubl 60 qəpik (il ərzində 20 rubl) vəsait buraxılmalıdır,ancaq dörddə biri buraxılır.Ancaq buna baxmayaraq cəbhəyə yetim və qaçqınlar üçün nə qədər əldə etmək mümkünsə ,o qədər də mələfə və geyim göndərilmişdir (4, v.1).

Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti imkansız, ehtiyacı olan şəxslərə müxtəlif formalarda yardım edirdi. Bunun üçün Yelisavetpol Quberniya Ərzaq İdarəsindən öz vəsaiti hesabına ərzaq məhsulları alıb imkansız şəxslərə paylayırdı. Sənədlərə diqqət edək:

Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyətinə, Yelisavetpol Quberniya Ərzaq İdarəsinin mühasibat şöbəsinin göndərdiyi 10 aprel 1918-ci il,550№li,vəsiqə göstərilir ki, həmin idarənin anbarından anbar müdirinin 722№li məxaric orderi əsasında Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyətinə üçpud şəkər - rafinad, iki pud şəkər tozu, üç fund çay verilmişdir. İdarənin üzvü. Baş mühasib (5).

Həmin idarənin 1123 №lihesabında göstərilir ki, Yelisavetpol Quberniya anbarından 10 fevral 1918-ci ildə 24 rubl məbləğində ödəniş əvəzinə 3 funt 1-ci funt çay (5,v.5), 11 fevral 1918-ci ildə 21 rubl,61 qəpik məbləğində ödəniş 5 pud əvəzinə şəkər - rafinadburaxmşdır (5,v.6).

7 mart 1918-ci ildə Xeyriyyə Cəmiyyətinin Yelisavetpol şəhərində "Fincan çay" tədbirinin keçirilməsi üçün həmin Cəmiyyətə A.Tağıyev qardaşları dükanından 210 rubl məbləğində 5 funt kofe (90 rubl) və 5 funt çay (120 rubl) satılmışdır. A.Tağıyevin məlumatı (5, v.13).

Yelisavetpol şəhərində, Yelisavetinskaya küçəsindəki Q.Z.A.Verdiyevin topdansatış dükanından Yelisavetpol Xeyriyyə Cəmiyyətinə 240 rubl məbləğində 12 arşın ağ örtük və 6 arşın enli örtük satılmışdır. Verdiyevin imzası (5,v.12).

Yelisavetpol Xeyriyyə Cəmiyyətinə Yelisavetpol Quberniya Ərzaq İdarəsi 1918-ci ildə 7 mart tarixli 736 №li hesab idarəsində bildirir ki, idarənin anbarından cəmiyyətin sərəncamına 214 rubl məbləğində ödəniş əvəzində 10 pud şəkər - rafinad buraxılmşdır. Mustafayevin məlumatı (5,v.14).

Müsəlman Xeyriyyə Cəmiyyəti bildirir ki, 1918-ci il 4 apreldə Yelisavetpol şəhərində keçirilən "Fincan çay" tədbiri üçün Ərzaq İdarəsinin anbarından haqqı tam ödənilməklə 51 ədəd pirojna alınmışdı (5, v.15).

Quberniya Ərzaq İdarəsinin Xeyriyyə Cəmiyyətinə ünvanladığı 766№li hesabında göstərilir ki, İdarə Cəmiyyətin hesabına 800 rubl ödəniş əvəzində 20 pud şəkər - rafinad buraxmşdır (5,v.18).

Yelisavetpol Quberniya Ərzaq İdarəsinin 1188№li hesabından aydın olur ki, idarə bu cəmiyyətə 125 rubl məbləğində 10 fut çay satmışdır (5,v.19).

Sənədlər şəhadət verir ki, Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti ehtiyacı oln müxtəlif şəxslərə yardım göstərmişdir. Məsələn, Hüseynqulu Hüseynov imzası ilə 1918-ci il 25 mayda təsdiq etmişdir ki, Aliyə Məmmədovanı öz mənzilində saxladığı və yeməklə təmin etdiyi üçün Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyətinin xəzinadarından 50 rubl almışdır. 1918-ci il 9 iyunda sənəd imzalamış şəxs təsdiq edir ki, Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti xəzinadarından Aliyə Məmmədovanın mənzildə qalmaq və yemək xərci üçün yenə 50 rubl almışdır (6, v .97- v.97a.).

Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyətiöz xəzinadarından xahiş edir ki, Yelisavetpolun İmamlı küçəsində yaşayan Şəkər Sarı qızına 1918-ci il 4 iyul tarixdə 25 rubl ianə ödəsin(6, v. 106).

19 iyun 1918-ci ildə "Qardaş köməyi" kafesinin xidmətçisi Abbas Quliyev Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyətindən 1918-ci il 17 maydan -18 iyunadək yüz manatadək pul aldığını öz imzası ilə təsdiq etmişdir (5,v.20).

Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti I Dünya müharibəsi dövründə qaçqın düşmüş əhaliyə yardım prosesində iştirak etmiş onların imdadına yetişmişdir.Sənədlər bu məsələyə aydınlıq gətirir.

Tiflis şəhəri Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının Qaçqın şöbəsi,487№li, 13 iyun 1918-ci il tarixli Yelisavetpol Xeyriyyə Cəmiyyətinə ünvanladığı məktub:Qaçqınlar üçün yaradılılmış sığınacağın ehtiyacını ödəmək üçün Yelisavetpol və Bakı quberniyalarının qaçqınlar işi üzrə müvəkkili K.Kazımzadə vasitəsilə sizə 10.000rubl göndəririk. Sizdən xahiş olunur ki,təcili olaraq əvvəllər xərclənmiş pullar haqqında hesabatı göndərəsiniz. Yeni smeta tərtib olunduqda Sizə əlavə pul ayrılacaq. Baş müvəkkil Ş.Rüstəmbəyov, işlər müdiri M.Vəkilov (4,v.30).

Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının Qaçqınlar şöbəsinə sığınacağdakı qaçqınların qalması üçün 1918-ci il 28 fevraldan 6 iyuladək çəkilən xərclər barədə təsdiqləyici sənədləri Sizə göndərir (4, v.40) yazaraq məlumat verirdi.

Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyətinin qaçqınların sığınacağının saxlanması xərcləri haqqında (1918-ci il 28 fevral 1 iyula) hesabat (4 ,v.41):

Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının Qaçqınlar üzrə şöbəsinin Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyətinə ünvanladığı 25 iyul 1918-ci il tarixli 553№li məktubda deyilir ki, sizə bildiririk 25 fevraldan 6 iyuladək

sığınacağdakı qaçqınların saxlanması üçün sərf olunan 105.290 rubl 42 qəpik 500 rubl istisna olmaqla yoxlama zamanı silindi. 500 rubl Cəmiyyətin ixtiyarında saxlandı. Baş müvəkkil Ş.Rüstəmbəyov, işlər müdiri M.Vəkilov (4, v.43 a.).

Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyəti 17 aprel 1918-ci ildə Zaqafqaziya Mərkəzi Müsəlman Şurasının baş müvəkkili Ş.Rüstəmbəyovdan 10.000 rubl avans aldığını bildirir (4, v.41).

Yelisavetpol MüsəlmanXeyriyyə Cəmiyyətinin himayəçilik etdiyi qaçqınlar üçün sığınacaq evinin müdiri A.Naqiev (familya rus dilində yazılmışdır- Z.K.) göstərir ki, qaçqınlar üçün nəzərdə tutlmuş xəstəxanaya sığınacağın əmlakından əşyalar ayırmaq mümkün deyil. O, sığınacağda içməli suya, qaynanmış su ilə dolu kranı olan çəlləyə, bərbərxanaya, aptekdən alınacaq tibb preparatlarına ehtiyac olduğunu bildirir (v.3, v.3 a.).

Xəstəxana üçün lazım olan 34 adda əşyanın adı da sənəddə göstərilir: çarpayı (30), təzə döşək (30), odeyal (30), balınc (30), döşək üzü (90), əl-üz dəsmalı (90), qab qacaq, sabun və s. (4, v.4).

Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyətinin əczaçı cənab N.Qelbuxa ünvanladığı məktubda (28 mart 1918, №2) ondan xahiş olunur ki, sığınacaq üçün lazım olan tibb preparatlarını oraya göndərəsiniz və bizdən onun pulunu almaq üçün hər ay hesabı Cəmiyyətə təqdim edəsiniz (4,v.5).Cəmiyyətin mühasibatının məlumatından aydın olur ki,N.Qelbux bu xahişi yerinə yetirmişdir.Lakin Cəmiyyət ona çatası 1470 rubl.65 qəpik məbləğin hələlik 9/VII-1918-cı il tarixdə 270 rublunu ödəmişdir(4,v.4

Xalqımız naminə geniş fəaliyyət göstərmiş Yelisaetpol Müsəlman Xeyriyyə Cəmiyyətinin fəaliyyətini əlimizdəki arxiv materialları əsasında qısaca işıqlandırdıq,yeni məqalələrdə bu iş davam etdiriləcək.

Ədəbiyyat

1.Cavadov C.Azərbaycanda xeyriyyəçilik.Bak,1999

2.Азәрбаусан ССР Mərkəzi Dövlət Tarix Arxivi,ф.421,оп.1,д.1,

3.Азәрбаусан ССР Mərkəzi Dövlət Tarix Arxivi.ф.421 ,оп.1,ед.хр18. Дело Елисаветпольского Мусульманскаго Благотворительнаго общества обь устройствь катафалки.Дело началось 6.IV.1917

4. Азәрбаусан ССР Mərkəzi Dövlət Tarix Arxivi, ф.421, оп.1, ед.хр.19

5. Азәрбаусан ССР Mərkəzi Dövlət Tarix Arxivi. Елисаветпольская губернская Продовольственная Управа отдель бухгалтерии 10 апреля 1918, № 550

6 Азәрбаусан ССР Mərkəzi Dövlət Tarix Arxivi, ф.421,оп.1,ед.хр 21,v.97